

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 aprel 2025-ci il №28 (2937) https://mod.gov.az Qiyməti 30 qəpik


## 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İkinci Dünya müharibəsində Qələbənin 80-ci ildönümü ilə əlaqədar **qərara alıram**:

1. 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 2 500,0 (iki min beş yüz) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 1 250,0 (bir min iki yüz əlli) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

2. Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədilə:

2.1. Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3,2 milyon (üç milyon iki yüz min) manat vəsait ayrılsın;

2.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulmuş vəsaitin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin etsin;

2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə ödənilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 aprel 2025-ci il

*Reportaj*

## Səni xoş görürük, Azərbaycan əsgəri!..



Hərbi xidmətimin başlanğıcından səninlə sənin xidmət etdiyin hərbi hissədə görüşmək istəmişdim, Azərbaycan əsgəri. Əlim əlində isinsin deyə, sözün sözümə söykək olsun deyə, Vətənə sevgimiz qoşalaşsın deyə. Həmin gün Hərbi And içdiyim günü də xatırlayacaqdım, zabit rütbəsi aldığım günü də, xidmətimin ilk gününü də. Səninlə görüşəndə bu duyğuları yenidən yaşayacağıma əminliklə həmin günün işığına tələsirdim. O gün gəldi, Azərbaycan əsgəri! Səninlə üzüzə, göz-gözə dayanacağım anlara tələsirdim...

Hərbi jurnalist olaraq ilk ezamiyyətin duyğularını belə yaşayırdım: həyəcan, məsuliyyət, əsgərlərlə xidmət yerində söhbətləşməyin qüruru. Bunlar yaddaşımda ömürlük qalacaqdı...

Uğura dan yeri sökülməmiş çıxmışdıq. Saat dörd olmamışdı. Bakı hələ yuxuda idi. Küçələr boş, yollar səssiz, hava sərin idi. Duman yolun görümünü çətinləşdirmişdi; sanki təbiət bizim istəyimizi sınağa çəkirdi.

Saatlar keçdikcə şəfəqin ilk işıqları görünməyə başladı. Günəşin qızılı rəngləri dumanı yavaş-yavaş dağıdır, qaranlıq çəkilib gedirdi. Yol boyu təbiət mənzərələri gözümüzü oxşayırdı. Uca dağlar, dərələr, meşələr, yol kənarında qoyunquzu otaran çobanlar. Sevgimizin gerçək dünyasına düşmüşdük...

(Ardı 3-cü səhifədə)

## Ötən həftə 893,8 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən aprelin 14-dən 20-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 60, tank əleyhinə 9 mina və 1072 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 893,8 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.




## Leonid Slutski: Kimsə Ermənistanın silahlanacağına və Qarabağı geri alacağına ümid edirsə, bunu gözləməsin

Rusiya Dövlət Dumasının Beynəlxalq əlaqələr komitəsinin sədri, LDPR lideri Leonid Slutski AZƏRTAC-a müsahibəsində Rusiya-Azərbaycan münasibətlərinin vəziyyətindən danışıb, Azərbaycan ilə Ermənistan arasında sülh yolu ilə nizamlanma barədə fikirlərini açıqlayıb, O, eyni zamanda, Qarabağın müharibədən sonrakı bərpasında Azərbaycan rəhbərliyinin xidmətlərini qeyd edib, Bakının İkinci Dünya müharibəsinin veteranları ilə bağlı humanitar siyasətini dəyərləndirib.



**- Rusiya-Azərbaycan münasibətlərinin xüsusilə də 9 May - Qələbə bayramı ərəfəsində hazırkı vəziyyətini necə qiymətləndirirsiniz?**

- Rusiya-Azərbaycan münasibətlərinə heç nə ilə xələl gətirmək mümkün deyil. Biz tarixi, coğrafi, mədəni baxımdan bir yerdə olmağa məhkumuq. Biz bəşər tarixinin ən qanlı müharibəsini birlikdə keçmişik və mayın 9-da böyük Qələbəni birlikdə qeyd edəcəyik.

Ümid edirəm ki, Azərbaycan Prezidenti, qardaşım İlham Heydər oğlu Əliyev həmin gün Moskvada, Qələbə paradında bizimlə olacaq. 80 il çox mürəkkəb bir tarixdir. Sonuncu veteranlar dünyasını dəyişir. Biz onları hələ çox gənc, mənim indiki yaşımdan cavan insanlar kimi xatırlayırıq. Əlbəttə ki, faşizm üzərində birgə Qələbəmiz naminə vuruşmuş, zəhmət çəkmiş, canlarından keçmiş azərbaycanlıları da unuda bilmərik. Bu gün ölkələrimizi və xalqlarımızı birləşdirən çoxlu mühüm infrastruktur layihələri var.

Azərbaycan xalqının dahi oğlu, müasir Azərbaycanın qurucusu Heydər Əlirza oğlu Əliyevi həmişə xatırlamalıyıq və biz onu hər zaman xatırlayacağıq. Heydər Əliyev bu gün də əhəmiyyətli olan Baykal-Amur magistralının inşasına, sənaye və yüksək texnologiyalar sahələrində bir çox proqramlara, layihələrə böyük töhfə vermişdir. İlham Heydər oğlu dahi atasının vəsiyyətini yerinə yetirərək bu gün Azərbaycanı enerji cəhətdən müstəqil dövlətə çevirib. Azərbaycan bir çox beynəlxalq forumların, platformaların və formatların mərkəzidir. Əlbəttə ki, İlham Heydər oğlu dahi atasının əsas vəsiyyətini yerinə yetirib - Qarabağı geri qaytarıb. Bu gün isə Qarabağ sürətlə inkişaf edir. Hər hansı məsələlər ola bilər, lakin bu, ölkələrimizi, xalqlarımızı və prezidentlərimizi ayıra bilməz. Bu gün isə Azərbaycan xalqının şanlı övladlarının bu yaxınlarda göstərdikləri, onların ata və babalarının, İkinci Dünya müharibəsi qəhrəmanlarının fəxr edə biləcəkləri şücaəti xatırlayaraq deyirik: "Qarabağ Azərbaycandır!".

(Ardı 2-ci səhifədə)

## “Hərbi xidmətin müqəddəsliyinin məsuliyyətini yaxşı dərk edirik”




Günün nizam qaydalarına uyğun olaraq, Azərbaycan Ordusunun hissə və bölmələrində keçirilən ictimai-siyasi hazırlıq dərslərində ordumuzun yaranma tarixi və keçdiyi inkişaf yolu, ermənilərin xalqımızın başına gətirdiyi müsibətlər, torpaqlarımızın ərazi bütövlüyü və suverenliyi uğrunda gedən döyüş əməliyyatları zamanı igid oğullarımızın göstərdikləri qəhrəmanlıq nümunələri, eləcə də digər mövzularda söhbətlər aparılır. Keçirilən məşğələlər əsgərlərimizin döyüş ruhuna və Vətən sevgisinə müsbət təsir göstərir.

(Ardı 6-cı səhifədə)

# Müdafiə nazirinin müavinləri Qətərə səfər ediblər





Azərbaycan Respublikası-nın müdafiə nazirinin müavini - Baş direktor cənab Aqil Qurbanov, müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin (HHQ) komandanı general-leytenant Namiq İslamzadə Qətərdə rəsmi səfərdə olublar.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə nümayəndə heyəti Al Udeid Aviabazasında Qətər Silahlı Qüvvələrinin Hərbi Aviasiya akademiyasını ziyarət edərək burada yaradılmış şərait və tədris prosesi ilə tanış olublar.

Daha sonra Qətər Dövlətinin baş nazirinin müavini və müdafiə işləri üzrə dövlət naziri Əlahəzrət Şeyx Saud bin Əbdülrəhman bin Həsən Əl-Tani Qətərdə səfərdə olan Baş direktor cənab A.Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüş zamanı qarşılıqlı maraq doğuran məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb, hər iki dövlət arasında mövcud olan əməkdaşlığın vəziyyəti və inkişaf etdirilməsi imkanları müzakirə edilib.

Görüşdə HHQ-nin komandanı general-leytenant N.İslamzadə, eləcə də hər iki tərəfdən bir sıra yüksək rütbəli zabitlər və rəsmi şəxslər iştirak ediblər.

Daha sonra Qətərin "Barzan Holdings" şirkətində olan Azərbaycan Müdafiə Nazirliyinin nümayəndə heyətinin holdinqin rəhbərliyi arasında keçirilən görüşdə hərbi texniki sahədə əməkdaşlığın perspektivlərindən danışılıb.

# Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 54-cü ildönümü qeyd edilib

***Milli Müdafiə Universitetinin (MMU) tabeliyində fəaliyyət göstərən Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaranmasının 54-cü ildönümü ilə əlaqədar tədbir keçirilib.***



Milli Müdafiə Universiteti xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Cəmşid Naxçıvanskinin liseyin ərazisində ucaldılmış büstü önünə gül dəstələri qoyularaq xatirəsinə dərin hörmət və ehtiram nümayiş etdirilib.







Ulu Öndər Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Liseyin məzunları, şəhid ailələri və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə İdeoloji İş və Mənəvi-Psixoloji Təminat idarəsinin rəisi polkovnik Elşad Əbilov Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrik məktubunu şəxsi heyətə çatdırıb.

Hərbi liseyin rəisi, Vətən Müharibəsi Qəhrəmanı polkovnik Anar Mirzəyev MMU rektoru general-mayor Gündüz Əbdülovun və öz adından şəxsi heyəti təbrik edib.

Tədbirdə çıxış edənlər hərbi liseyin yaradılması, keçdiyi inkişaf yolu, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordumuzun ərazi bütövlüyümüzün bərpa olunmasında apardığı uğurlu döyüş əməliyyatlarından, qazanılan tarixi qələbələrdən, bu şanlı qələbələrin qazanılmasında hərbi liseyi müxtəlif illərdə bitirmiş məzunların göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrindən danışıblar.

Sonra hərbi təhsil müəssisəsində yaradılan təlim-tədris və məişət səraiti ilə bağlı videoçarx təqdim olunub. Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin və hərbi liseyin yaradıcı kollektivinin iştirakı ilə vətənpərvərliyi tərənnüm edən mahnılar ifa edilib, bədii kompozisiyalar göstərilib.

Sonda kursant və müəllim heyəti tərəfindən ildönümü münasibətilə hərbi liseyin ərazisində 54 ədəd ağac əkilib.

(Əvvəli 1-ci səhifədə)

# Leonid Slutski: Kimsə Ermənistanın silahlanacağına və Qarabağı geri alacağına ümid edirsə, bunu gözləməsin

**- Siz bu yaxınlarda Şuşaya səfər etdiniz və münaqişə bitdikdən sonra regionun necə inkişaf etdiyini gördünüz. Azərbaycanın Qarabağın bərpası və regionda proqramların həyata keçirilməsi istiqamətində səylərini necə qiymətləndirirsiniz?**

- Orada elmtutumlu klasterlər yaradılır, hava limanları tikilir. Qeyd etdiyiniz kimi, mən bu yaxınlarda Şuşada, həmçinin Füzuli hava limanında oldum. İşğaldan azad edilmiş ərazilərdə hər ay bugünkü və gələcək Azərbaycan tarixinə əbədi yazılacaq yeni, infrastruktur baxımından çox mühüm tikintilər həyata keçirilir.

**- Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının perspektivləri barədə nə deyə bilərsiniz? Sizcə, prosesin irəliləməsinə nə mane olur və Rusiya hansı rolu oynayır?**

- İlk növbədə, Ermənistan konstitusiyasından Qarabağa aid olan hissəni çıxarmaq lazımdır. Gündəlikdə bəzi digər məsələlər də var. Sülh müqaviləsi gec-tez imzalanacaq. Təbii ki, daha tez olsa, daha yaxşı olar. Ona görə də bunun yaxın gələcəkdə baş verməsi üçün əlimizdən gələni edəcəyik. Ləngimək olmaz, Cənubi Qafqaz xalqlarının mənafeyi naminə dinc quruculuq yolu ilə irəliləməliyik.

**- Ermənistanın xarici aktorlar tərəfindən hərbiləşdirilməsini necə qiymətləndirirsiniz? Silahların artırılması nəticəsində Cənubi Qafqazda sabitliyin pozulması riski varmı?**

- Kimsə Ermənistanın silahlanacağına və Qarabağı geri alacağına ümid edirsə, bunu gözləməsin - bu, heç vaxt baş verməyəcək. O, təpədən-dırnağa qədər silahlansa belə, Azərbaycan yenə də ondan güclüdür. Öz ambisiyalarını təmin etmək üçün deyil, bu qarşıdurmaya son qoymaq və Cənubi Qafqazda yaşayan insanların maraqları naminə dinc quruculuq yolu ilə hərəkət etmək lazımdır.

**- Məlum olduğu kimi, istər Ümummilli Lider Heydər Əliyevin dövründə, istərsə də indi Azərbaycanda İkinci Dünya müharibəsi veteranlarına xüsusi diqqət göstərilir, onların xatirələri ehtiramla yad olunur. İkinci Dünya müharibəsi veteranlarına Azərbaycanda çox böyük dövlət dəstəyi göstərilir. Bu dövlət siyasətini necə qiymətləndirirsiniz? Bu, digər ölkələr üçün nümunə ola bilərmi?**

- İkinci Dünya müharibəsi veteranlarına münasibət baxımından Azərbaycanı etalon hesab etmək olar. Orada hər bir veteran tanınır və ona, onun yaxınlarına, sağlamlığına, ailəsinin rifahına qayğı ilə yanaşılır. Xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti İlham Əliyev hər bir ailəni öz şəxsi diqqət mərkəzində saxlayır, - mən şişirtmirəm və heç bir kompliment söyləmirəm, bu, həqiqətən də, belədir. Çox təəssüf ki, indi veteranlar çox az qalıb. Rusiya Prezidenti də veteranlara münasibətdə eyni prinsipə riayət edir və bu, dövlət siyasətidir. Bu, ümumilikdə bugünkü dövlət siyasətinin və gələcəyimizin qurulmasının mühüm tərkib hissəsidir.

Ümid edirəm ki, qardaşım İlham Heydər oğlu ilə tezliklə görüşəcəyik. O, həqiqətən də, dahi atasının ölməz xatirəsinə layiqdir və doğma ölkəsi - böyük Azərbaycanın mənafeyi naminə ən həllolunmaz kimi görünən problemləri həll etməyə qadirdir. Azərbaycan üçün isə hər il milli iqtisadiyyatın inkişafında, sosial siyasətin gücləndirilməsində və əlbəttə ki, Rusiya ilə qardaşlıq əlaqələrinin möhkəmləndirilməsində mühüm nəticələrlə əlamətdardır. Bu əlaqələrə heç vaxt və heç kəs xələl gətirə bilməyəcək.

# Səni xoş görürük, Azərbaycan əsgəri!..



(Əvvəli 1-ci səhifədə)

Xidmət yoldaşlarım söhbət edirdi.

Mən pəncərədən gördüklərimi yaddaşıma həkk edirdim, onları təkcə gözlərimlə deyil, həm də ruhumla da hiss edirdim...

Mən saatlardan sonra görüşəcəyim əsgərlərdən soruşacaqlarım haqqında düşünürdüm. Bu, müsahibə olmayacaqdı, söhbətə başlanğıc olacaqdı. Vətəndən danışacaqdıq, Vətən müharibəsindən danışacaqdıq, qəhrəmanlıqlardan danışacaqdıq. Soruşacaqdım ki, tarixi Zəfər qazanmış əsgərlərin davamçısı kimi nə düşünürsünüz? Nə deyəcəklərini təxmin də edirdim: Onlar Qələbənin əsgəri oldular, Zəfər qazandılar, biz Zəfərin əsgəri kimi Azərbaycanın ərazi bütövlüyünü göz bəbəyi kimi qoruyacağıq, bir daha sərhədlərimizin bu üzünə yad ayağı dəyməyəcək! Bu təxminimin gerçəklik olacağına zərrəcə şübhəm yoxdu. Sözarası baş leytenant Elçin İmanov nə düşündüyümü soruşdu. Dedim. Gülümsündü. Bu gözəl təbəssüm mənim düşüncələrimə şərikliyin təbəssümü imiş, bu duyğuların eynini bir neçə il əvvəl o da yaşayıbmış.

Hərbi hissədəydik. Bizi qarşılayan polkovnik-leytenant Anar Əliyev hərbi hissə-hərbi mətbuat münasibətlərinin səmimiliyindən söz açdı, əsgərlərin hərbi mətbuata maraqlı olduqlarını bildirdi, qəhrəmanlıqlardan, qəhrəmanlardan yazılan məqalələri daha həssaslıqla oxuduqlarını dedi. Kursant olanda biz də belə məqalələrə daha çox maraq göstərirdik. Əsgərlərdən biri Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovu xatırlatdı, digəri Çingiz Qurbanovu. Onların qəhrəmanlığının oxşarlığının ruhun eyniliyindən irəli gəldiyini dedilər. Onu da dedilər ki, Hərbi Anda, dövlətə, dövlətçiliyə sədaqətlə xidmət edən Azərbaycan əsgəri Vətənin müqəddəsliyinin sipəridir...

Zabit A.Əliyev bizə hərbi hissənin tarixindən, təlimlərdən, əsgərlərin döyüş və mənəvi-psixoloji hazırlığından danışdı. Zabitin qürurunu qürurumuz bildik...

Azərbaycan əsgərinin döyüş növbətçiliyi apardığı posta gedirdik. Kənd yolları getdikcə çətinləşirdi - dağlıq ərazilərə yaxınlaşırdıq...

Yolmu uzanırdı, bizmi çatmağa tələsirdik, bilmirdim. Vaxt ötüşmürdü elə bil...

Əsgərlərin əhatəsindəydik. Yol boyu düşüncələrimi silkələyən fikirlərin cazibəsində xoş ovqat yaşanılırdı...

Əsgər Zahid Əliyev dedi ki, Vətən mənim üçün də sadəcə bir coğrafi ərazi deyil. Torpağın hər zərrəsi, ağacların hər budağı, axan suların hər damcısı Vətəndir. Mən də bu torpağı, ağacları, axar suları, ... qorumaq üçün and içmişəm. Ruhumuz bu torpağa bağlıdı, ağacları ağac edən, axar sulara sinəsində yer verən torpağımız hər birimizin müqəddəslik ünvanımızdır...



Əsgər Faiq Sadiqov əsgər yoldaşının sözünə qüvvət kimi dedi ki, Vətən nəfəsimizdi, ruhumuzdu, canımızdı! Biz kimliyimizi Vətənin keşiyində durmaqla, bu torpaqları qorumaqla yaşadırıq. Himnimizdə deyildiyi kimi, Səndən ötrü can verməyə cümlə hazırız...

Əsgərin düşüncələri ürəyimizi dağa döndərir. Azərbaycan əsgərinin Vətən sevgisinin nəhayətsizliyi döyüş növbətçiliyinin göylərinə yayılır...

Hərbi hissəyə çatınca xəyalən kəlmələşdiyim əsgərlərin düşüncələrini onun mənəvi-psixoloji hazırlığının manifesti bilirəm!..

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

## Milli Müdafiə Universiteti "Açıq qapı" günü keçirəcək




Buraxılış imtahanlarında yüksək nəticə göstərmiş abituriyentlər və onların valideynləri üçün aprelin 26-sı saat 11:00-da Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunda xaricdə təhsillə bağlı "Açıq qapı" günü keçiriləcək.

Universitetdən AZƏRTAC-a bildirilib ki, tədbir çərçivəsində iştirakçılara xaricdə təhsil imkanları və qəbul prosesi barədə ətraflı məlumat veriləcək. Vətəndaşları maraqlandıran suallarla bağlı Milli Müdafiə Universitetinin "Çağrı mərkəzi" - *0811 (iş günlərində saat 09:00-dan 17:30-dək) və admission@mmu.edu.az elektron poçt ünvanı fəaliyyət göstərir.

## Azərbaycanla Somali müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq edəcəklər

Azərbaycanla Somali müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq edəcəklər.

AZƏRTAC xəbər verir ki, "Azərbaycan Respublikası Hökuməti ilə Somali Federativ Respublikası Hökuməti arasında müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi Milli Məclisin aprelin 22-də keçirilən plenar iclasının gündəliyinə daxil edilib.

Saziş 2025-ci il fevralın 12-də Bakı şəhərində imzalanıb.

*Tibb xidməti*

# İkiqat məsuliyyət

*Hərbi hissədə tibb məntəqəsində tibb xidməti zabitləri ilə bərabər, mülki həkimlərin də çalışması yenilik deyil. Hərbi hissələrdə mülki şəxslər müxtəlif sahələrdə çalışdıqları kimi, hər zaman tibb sahəsində də çalışıblar. Polkovnik-leytenant Elşən Hüseynovla tibb məntəqəsində olduq.*



Hərbi hissənin tibb məntəqəsi nəzərdə tutulmuş tibbi avadanlıqlarla təchiz olunmuşdu. Əsgərlərin müalicəsi və müayinəsi üçün hər bir şəraiti olan yeni tikilmiş məntəqədə təmizlik, səliqə-sahman hökm sürürdü. Zabit Elşən Hüseynov qeyd etdi ki, məntəqədə çalışan həkimlər və tibb işçiləri müraciət edən hərbi qulluqçuları qəbul edir, onların səhhəti ilə bağlı şikayətlərini dinləyib müayinə edirlər. Ehtiyac yarandıqda isə həmin hərbi qulluqçu hospitala göndərilir. Zabit onu da əlavə etdi ki, Süreyya Məmmədova öz işində məsuliyyətli həkimlərdəndir. Məntəqəyə gələn əsgərləri ətraflı müayinə edir, onların tezliklə müalicə olunub sağlam şəkildə sıraya qayıtmalarını təmin edir.

Tibb məntəqəsində Süreyya həkimlə görüşdük. O, məntəqəyə gələn əsgərləri diqqətlə müayinə edib, onların səhhətində hər hansı bir dəyişikliyin olub-olmadığını müəyyən edirdi. Həkim dedi: "Yeddi ildən artıqdır ki, bu hərbi hissədə çalışıram. Vətən müdafiəçilərinin sağlamlığının keşiyində dayanmaq mənim üçün qürurvericidir. Məntəqəyə gələn və səhhəti ilə bağlı müraciət edən hər bir hərbi qulluqçunu dinləyirəm, sonra onun tənəffüs yollarına xüsusi cihaz vasitəsilə qulaq asıram. Hərarəti olan xəstələr ciddi həkim nəzarətinə götürülür, bəziləri isə hospitala göndərilir. İndi havanın tez-tez dəyişən vaxtıdır. Məntəqəyə müraciət edənlərin də sayı bir qədər artıb. Bu, təbii haldır. Boğaz ağrıları, öskürək halları daha çox olur. Buna qarşı qabaqlayıcı tədbirlər görürük. Əsgərlər təlim-məşğələlərdə olurlar. Onlar çöl şəraitində daha çox olduqları üçün bəzən də soyuq hava onlara təsir edir. Belə hava şəraitində xəstəliklərin baş qaldırması gözlənilir. Hansı aylarda nə cür hava şəraitində baş qaldıra biləcək xəstəliklərə qarşı əvvəlcədən profilaktik tədbirlər görürük.

Həkim Süreyya Heydər qızı Məmmədova Beyləqan rayonunda anadan olub. Azərbaycan Tibb Universitetini "Müalicə işi" ixtisası üzrə bitirib. Tibb məntəqəsində çalışıb və hərbi hissədə həkimə ehtiyac olduğunu biləndə müraciət edib, müsbət cavab alıb. Elə həmin vaxtdan da burada həkim kimi çalışır. Hərbi hissənin tibb məntəqəsində yaradılan şəraitə görə və komandanlığın ona göstərdiyi etimadı doğrulduğu üçün özünü rahat hiss edir.

Süreyya həkim dedi ki, tibb məntəqəsində ona daha yaxından kömək edən tibb xidməti giziri Təvəkkül İsayevdir. Təvəkkül Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsinin nəzdində fəaliyyət göstərən tibb kollecini bitirib. 2018-ci ildən burada xidmət etdiyini deyən feldşer Təvəkkül İsayev xidmətindən, burada çalışan həkimlərdən razı qaldığını bildirdi. Onun başlıca vəzifəsi həkimlərin verdiyi tapşırıqları, yeni, xəstələri nəzarətdə saxlamaq və onların müalicəsinin gedişini təmin etməkdir.

Həkim Süreyya Məmmədova tibb məntəqəsində işini elə təşkil edib ki, həm kollektivin, həm də müraciət edən hərbi qulluqçuların hörmətini qazanıb. Həkim əsgərlərə bir də xəstələnməməyi arzulasa da, bəzən bunun qaçılmaz olduğunu dedi.

Vətənimizin müdafiəsində dayanan cəsur oğulların sağlamlığının keşiyində dayanmaq onun üçün ikiqat məsuliyyətdir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Milli Müdafiə Universitetinin xüsusi təyinatlı təhsil müəssisələrinə qəbulun təşviqi aparılıb








Aprelin 21-də Azərbaycan Respublikasının Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən hərbi institut, hərbi kolleclər və hərbi liseylərin tanıdılması, həmin müəssisələrə qəbulun təşviqi məqsədilə Şərur rayonunda təbliğat tədbiri təşkil olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, maarifləndirici görüşdə Şərur rayon məktəbliləri iştirak ediblər.

Rayon Mədəniyyət Sarayında təşkil olunan tədbirdə Naxçıvan Hərbi Kollecinin və Təhsil Nazirliyinin əməkdaşları tərəfindən şagirdlərə Milli Müdafiə Universitetinin strukturları, xüsusi təyinatlı təhsil müəssisələrinə elektron sənəd qəbulunun şərtləri, fakültələr, kursantlar üçün birdəfəlik, aylıq ödəmələr, imtiyazlar və digər vacib məsələlər barədə ətraflı məlumatlar verilib, videoçarx izlənilib, suallar cavablandırılıb. Həmçinin hərbi geyimlər və müxtəlif təlim-tədris vasitələri nümayiş etdirilib. Tədbirin əsas məqsədi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, gənc nəslin hərbi təhsilə marağının artırılması, eləcə də gələcək hərbi kadr ehtiyatının formalaşdırılması istiqamətində maarifləndirici işlərin aparılmasıdır.

Qeyd edək ki, maarifləndirici tədbirlər aprelin 24-dək davam etdiriləcək. Aprelin 26-da isə Naxçıvan Hərbi Kollecində şagirdlər üçün "Açıq qapı" gününün təşkili nəzərdə tutulub.

# Hərbi intizam, fiziki güc, taktika və döyüş qabiliyyəti



*Azərbaycan Respublikası Müdafiə Nazirliyinin 2025-ci il üçün hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə təşkil edilən növbəti təlim toplanışı "N" hərbi hissəsində uğurla davam etdirilir. Tədbirin əsas məqsədi ehtiyatdan çağırılan hərbi vəzifəlilərin döyüş qabiliyyətinin, fiziki və taktiki hazırlığının artırılması, nəzəri və praktiki bilik və bacarıqlarının yüksəldilməsi, onların müasir döyüş şəraitinə uyğun vərdişləri mənimsəməsidir.*

Toplanışa cəlb olunan hərbi vəzifəlilər ilkin mərhələdə şəxsiyyətləri üzrə qeydiyyatdan və tibbi müayinələrdən keçir, hərbi geyim, fərdi qoruyucu vasitələr, eləcə də digər təminat növləri ilə təmin olunurlar. Bu, onların fiziki və mənəvi cəhətdən toplanışa tam hazır vəziyyətdə qoşulmalarına şərait yaradır.

Şübhəsiz ki, nizami ordu olmasa, heç bir döyüş hazırlığından danışmaq olmaz. Ona görə də ordu quruculuğunda daim diqqətdə saxlanılan məqamlardan biri də şəxsi heyətin yüksək hərbi intizama sahib olmasıdır. Hərbi intizam isə sıradan başlayır. Şəxsi heyətin döyüş hazırlığından, gündəlik fəaliyyətindən danışdıqda sıra hazırlığı məşğələlərini mütləq qeyd etməliyik. Toplanış çərçivəsində keçirilən sıra hazırlığı məşğələləri xüsusi əhəmiyyət kəsb edir. Hərbi xidmətin ayrılmaz hissəsi olan sıra hazırlığı şəxsi heyətin nizam-intizamlı, dəqiq və koordinasiyalı fəaliyyət göstərməsi üçün əsas baza rolunu oynayır. Burada hərbi vəzifəlilərə sıra düzülüşləri, yerində və hərəkətdə olan komandaların icrası, fərdi və qrup şəklində fəaliyyətlər, təzim etmə qaydaları, nizamnamə əsaslı davranış vərdişləri tədris olunur. Sıra hazırlığı məşğələlərində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Sıra Nizamnaməsinin tələblərinə uyğun olaraq dərslər keçirilir, sırada silahsız və silahla sıra hərəkətlərini və yerişini, əsgəri salamlaşma qaydalarını, hərbi qulluqçuların düzülüşdən qabaq və sırada vəzifə borclarını, sıra hazırlığına olan tələbləri, yuxarı rəislərə yaxınlaşma, həmçinin digər elementlər öyrədilir. Bunlarla yanaşı, sıra hazırlığı həm də şəxsi heyətə yüksək intizam aşılayır.



"Atəş hazırlığı məşğələsi də döyüş hazırlığının mühüm tərkib hissəsidir. Bu mövzunun metodikasına nəzər salsaq görərik ki, nəzəri bilik və bacarıqların praktiki uğurla icrası mütləq və zəruridir. Belə ki, atış tapşırıqlarının dəqiq yerinə yetirilməsi üçün şəxsi heyət mütləq qaydada silah və döyüş sursatını, onun imkanlarını və tətbiqi qaydalarını bilməlidir. Məşğələlər zamanı şəxsi heyətə düzgün nişanalma, atış qaydaları, normativlərin yerinə yetirilmə ardıcıllığı, çalışma şərtləri və ən əsası təhlükəsizlik qaydaları bir daha öyrədilir. Həmçinin şəxsi heyətə müşahidə edərək hədəfləri aşkar etmə, onlara qədər olan məsafəni müəyyənləşdirmə, həm fərdi, həm də bölmə tərkibində sərrast atış texnikası təkrar elətdirilir. Toplanış zamanı da hərbi vəzifəlilər müxtəlif silah növləri ilə praktiki məşğələlərdə iştirak edirlər. Təlimlər zamanı əsas diqqət nişangah seçimi, silahın düzgün tutulması, atəş zamanı nəfəs və barmaq nəzarətinə yönəldilir. Eyni zamanda, döyüş şəraitinə uyğun taktiki hərəkətlər - sığınacaqdan istifadə, mövqe dəyişmə, qrup halında irəliləmə - intensiv şəkildə tədris olunur.





Hərbi qulluqçuların fiziki cəhətdən möhkəm, güclü olmaları onların döyüş ruhunu daha da artırır. Məhz buna görə də müasir ordumuzda fiziki hazırlıq döyüş hazırlığının ayrılmaz tərkib hissəsidir. Şübhəsiz ki, döyüş şəraitində hərbi qulluqçuların fiziki hazırlığı həyati əhəmiyyət daşıyır. Bu baxımdan, təlim toplanışında fiziki hazırlıq məşğələləri sistemli və mərhələli şəkildə aparılır. Qaçış, turnikdə dartınma, maneələr zolağından keçmə kimi tapşırıqlar vasitəsilə hərbi vəzifəlilərin çevikliyi, dözümlülüyü və gücü inkişaf etdirilir, eyni zamanda, bu məşğələlər hərbi intizamın möhkəmləndirilməsinə də mühüm töhfə verir.

Toplanış müddətində hərbi vəzifəlilərlə psixoloji hazırlıq və təhlükəsizlik qaydalarına dair maarifləndirici söhbətlər də aparılır. Mütəxəssislər tərəfindən keçirilən interaktiv seminarlar vasitəsilə şəxsi heyətə təhlükəsizlik standartları, döyüş etikası və komanda ruhunun önəmi izah olunur.

Bu cür təlim toplanışları yalnız ehtiyatdan çağırılmış hərbi vəzifəlilərin praktiki döyüş qabiliyyətinin artırılması baxımından deyil, ümumilikdə ordumuzun müdafiə gücünün qorunması və mütəmadi olaraq yenilənməsi üçün də mühüm əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, bu tipli tədbirlər nəticəsində həm fərdi bacarıqlar, həm də kollektiv fəaliyyət imkanları əhəmiyyətli dərəcədə yüksəlir.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

# Hərbi Anda sadiq olan şəhid zabitimiz



***Vətən təkcə ayaq basdığımız torpaq deyil, kimliyimiz, ruhumuz, tarixi keçmişimiz və gələcəyimizdir. Torpaqlarımızın ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçən hər bir şəhidin döyüş yolu qanla yazılmış qəhrəmanlıq dastanıdır. Ölkəmizin müstəqilliyi və azadlığı uğrunda döyüşən, torpaqlarımızı gözbəbəyi kimi qoruyan hər bir əsgər, hər bir zabit bu millətin qürur rəmzidir.***

Bu gün dünyada Azərbaycan Ordusu hərbi gücü, mənəvi qüdrəti, eləcə də xalqımızın birliyi ilə tanınır. Ordumuzun qüdrəti onun sıralarında xidmət edən cəsur, peşəkar və vətənpərvər hərbi qulluqçuların sayəsində daha da güclənir. Onların sırasında elələri də vardır ki, həyatlarını ön cəbhədə, səngərlərdə, sözün əsl mənasında, odun-alovun içində keçirərək şanlı tarix yazırlar. Bu tarixi qanları ilə yazan qəhrəman oğullarımızdan biri də şəhid kapitan Aqil Niyaz oğlu Məlikovdur. O, öz ömür yolunu peşəkar zabit kimi Vətənə xidmətə həsr edib. Şəhidimiz torpaqlarımızın azadlığı, müdafiəsi və bütövlüyü uğrunda canını düşünmədən fəda edənlərdən biridir.

Aqil Məlikov 1986-cı il aprelin 6-da Quba rayonunun Alpan kəndində dünyaya gəlib. Uşaqlıq illərindən hərb sahəsinə olan marağı onu indiki Heydər Əliyev adına Hərbi İnstituta yönləndirib. 2009-cu ildə hərbi təhsil ocağını müvəffəqiyyətlə başa vuraraq ordu sıralarında zabit kimi xidmətə başlayıb.

İçdiyi Hərbi Anda sadiq olan Aqil Azərbaycan Ordusunun hərbi hissələrində müxtəlif vəzifələrdə xidmət yolu keçib. Xidmət etdiyi bölmələrdə nizam-intizamı, peşəkarlığı və yüksək təşkilatçılıq qabiliyyəti ilə seçilib.

Kapitan Aqil Məlikov təkcə Azərbaycan Ordusunda keçirilən təlimlərdə deyil, digər beynəlxalq təlimlərdə də ölkəmizi layiqincə təmsil edib. Xidmətini "N" hərbi hissəsində davam etdirən Aqil burada tabor komandirinin müavini vəzifəsinə qədər yüksəlib.

Peşəkarlığını təkcə sülh dövründə deyil, müharibə şəraitində də sübut edən kapitan Məlikov 2016-cı ilin Aprel döyüşlərində, 44 günlük Vətən müharibəsində də ön sıralarda olub. Qəhrəman şəhidimiz işğal altında olan torpaqlarımızın Ermənistan silahlı birləşmələrinin işğalından azad olunması, tarixi ədalətin bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edib. Füzuli rayonunun Qaraxanbəyli kəndi istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olaraq ən ali məqama ucalıb.

Kapitan Aqil Məlikovun hərbi xidmət dövründə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalları və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medallarla təltif olunub. O, ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

Bu gün şəhidimizin vətənpərvərlik ruhunu yaşadan övladları Xədicə və Süleyman onun bizə əmanətləridir. Kapitan Aqil Məlikovun həyat və döyüş yolu zabitlik şərəfinin, igidliyin və fədakarlığın canlı nümunəsidir. Onun əziz xatirəsi ailəsinin, döyüş yoldaşlarının və bütün qədirbilən xalqımızın yaddaşında əbədi olaraq yaşayacaqdır.

**Şəlalə DÜNYAMALIYEVA**
**"Azərbaycan Ordusu"**

# Dövlət komitəsinin nümayəndələri "N" hərbi hissəsində olublar



*Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında imzalanan birgə plana əsasən, milli-mənəvi dəyərlərimizin təbliği və hərbi qulluqçuların maarifləndirilməsi məqsədilə keçirilən tədbirlər davam edir.*

2025-ci il üçün birgə tədbirlər planına əsasən, aprelin 21-də komitənin nümayəndələri "N" hərbi hissəsində hərbi qulluqçularla görüşüb, onlarla maarifləndirici söhbətlər aparıblar.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Vətənimizin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbir çərçivəsində gənclərin tərbiyəsində islam dininin rolu, milli birliyin möhkəmlənməsində dini həmrəyliyin rolu, hərbi kollektivlərdə qarşılıqlı münasibətlər, yüksək davranış qaydaları, sağlam əhval-ruhiyyənin yaranmasında və formalaşmasında mənəvi dəyərlərin rolu, şəxsi heyətin tolerantlıq ruhunda tərbiyəsi, eləcə də digər mövzularda söhbətlər aparılıb, Azərbaycan Ordusunda bu istiqamətdə həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyəti diqqətə çatdırılıb.

Çıxış edənlər hərbi xidmət zamanı mənəvi hazırlığın, davranış mədəniyyətinin və sağlam psixoloji mühitin əhəmiyyətinə toxunublar. Zərərli vərdişlərin insan sağlamlığına və hərbi intizam mühitinə vurduğu zərərlərdən danışılıb, bu istiqamətdə dövlət səviyyəsində həyata keçirilən tədbirlər ətraflı izah edilib. Qeyd olunub ki, ordu daxilində sağlam əxlaqi mühitin formalaşması təkcə intizamı deyil, həm də ümumi döyüş hazırlığını möhkəmləndirir.

Görüşdə, həmçinin dini radikalizmə qarşı maarifləndirici tədbirlərin mühüm rolunun olduğu xüsusi vurğulanıb. Bildirilib ki, hərbi kollektivlərdə dini biliklərin düzgün təbliği, İslam dininin əsl mahiyyətinin izah olunması xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, qeyd edilib ki, dini maarifləndirmə yolu ilə gənc hərbi qulluqçuların düzgün mənəvi dünyagörüşünün formalaşması onların həm vətənpərvərlik hissini, həm də məsuliyyət duyğusunu artırır.

Tədbir sonda sual-cavab formatında davam etdirilib və hərbi qulluqçuları maraqlandıran mövzular ətrafında fikir mübadiləsi aparılıb.

**"Azərbaycan Ordusu"**

# Şəhidlik - vətənpərvərlik və fədakarlıq zirvəsi

*Zaman ötür, mövsümlər dəyişir, günlər ayları, aylar illəri, illər qərinələri və əsrləri əvəz edərək tarixə dönür. Tarix keçmişin izi olaraq yaddaşa həkk olunur. Zaman ötür. Onu nə saxlamaq, nə geri qaytarmaq, nə də qabaqlamaq olur və vaxt keçdikcə xatirəyə dönüşür.*



İnsanlar da zaman məfhumu kimi xatirələşir. Xatirələri tarixləşdirən insanlar da var. Şəhidlər.

Azərbaycan tarix boyu şəhidlərimizin qanı və canı bahasına, həmçinin qəhrəman qardaş və bacılarımızın fədakarlığı sayəsində öz varlığını qoruyub saxlaya bilib. Belə ki, 20 Yanvar faciəsi, Qarabağ müharibələri - bütün bu hadisələr Azərbaycan övladı üçün şəhidliyin nə qədər ali bir məqam olduğunu bütün dünyaya bir daha göstərmiş oldu.

Şəhidlik bəşər tarixində ən uca, ən müqəddəs ünvandır. Şəhidlər xalqının azadlığı, Vətəninin bütövlüyü, bayrağının ucalığı uğrunda öz canını qurban verən müqəddəs bir varlıqdır. Onlar təkcə tarixi qanı ilə yazanlar deyil, gələcəyi öz fədakarlığı ilə quranlardır.

Vətən sevgisinin ən ali məqamı, vətənpərvərlik nümunəsidir - şəhidlik. Bu ünvana yüksələnlərin əksəriyyəti ömrünün qısa olmasına baxmayaraq, əsrlər boyu yaşayacaq əbədiyyət sakinləridirlər. Ömrü qısa, lakin şərəfli olan minlərlə şəhidimiz qədirbilən xalqımız tərəfindən heç zaman unudulmur, onların ruhları daim yüksək ehtiramla yaşadılır. Xalqımızın qürur mənbəyi olan şəhidlərimizlə Azərbaycan xalqı və ələlxüsus da, gənc nəsillər fəxr edirlər.

Şəhidlərimiz cismən yanımızda olmasa da, ürəklərdə daim yaşayır, ölkəmizin müxtəlif nöqtələrində onların müqayisəolunmaz vətənpərvərliyi və fədakarlığı əbədiləşdirilir. Gənclərimizin təhsil aldığı məktəblər şəhidlərimizin adı ilə bağlıdır, müxtəlif şəhərlərimizin küçələri onların adını daşıyır, o cümlədən şəhidlərimizin şərəfinə memorial komplekslər salınır, xatirə lövhələri qoyulur. Sadalananlar xalqın, dövlətin öz qəhrəmanına verdiyi dəyərin ən bariz nümunəsidir. Bu xalq yüz illər boyu şəhidlər vermiş, yaralanmış, amma sınmamış xalqdır. Xalqı və Vətəni qoruyanlar onu sevən övladlardır. Tarixən yerləşdiyimiz coğrafi ərazinin münbit, lakin çətin olmasına baxmayaraq, öz varlığını qoruyub saxlaması məhz qəhrəman oğullar sayəsində mümkün olub. Öz ata-babalarından onlara əmanət edilən, müqəddəs varlıq olan Vətəni qorumaq üçün hər an irəli atılmağa hazır olan yüzlərlə Polad, Mübariz, Şükür və adı çəkilməyən qəhrəman övladımız yetişir. Öz sələflərinin adını və şanını layiqincə yaşatmaq üçün yaşayan gəncliyimiz bu gün üzərinə düşən məsuliyyəti dərindən dərk edir və Vətən hüdudlarını göz bəbəyi kimi qoruyur. Qoruyur ki, üçrəngli şanlı bayrağımız aid olduğu yüksəkliklərdə dalğalansın. Dalğalansın ki, Vətən var olsun. Gələcək nəslin qəhrəmanlıq nümunəsi olan şəhidlərimizin adları bu gün xalqın qəlbində yaşayır və gələcəyin memarları olan gənclərimiz o adları ləyaqətlə yaşadırlar.

Uzun həsrətdən sonra doğma torpaqlarımıza qovuşduq, ərazi bütövlüyümüz şəhidlərimiz və qəhrəman övladlarımızın fədakarlığı, vətənpərvərliyi sayəsində təmin olundu. Dövlət, xalq və ordu birliyi məfhumlarının vəhdətindən yaranan dəmir yumruq düşmənin başını əzdi. Qəhrəmanlarımız Zəfər tariximizi yaza-yaza tarixə qovuşdular. Bu müqəddəs yolda canlarından keçərək şəhidlik zirvəsinə ucalanlar, gələcək nəsil üçün nümunə olacaq ömür, həyat və qəhrəmanlıq yolunu yadigar qoydular. 30 ilə yaxın həsrətində olduğumuz Qarabağımızı azad edərək ərazi bütövlüyümüz, suverenliyimiz və müstəqilliyimiz uğrunda şəhid olan bütün əzizlərimizin ruhlarını şad etdilər.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

## Görkəmli şəxsiyyətlər

# General-leytenant Mirzə Hacı bəy Novruzov



***Mirzə Hacı bəy Əli bəy oğlu Novruzov 1832-ci ildə Yelizavetpol qəzasının Qovlar kəndində (indiki Tovuz rayonu Qovlar şəhəri) anadan olub. Zadəgan nəslindən olduğuna görə o, Peterburqdakı Paj hərbi korpusunda təhsil alıb. 1849-cu ildə ona "praporşik", 1852-ci ildə isə "kornet" rütbəsi verilib və Əlahəzrət İmperatorun konvoyunun Müsəlman Komandanlığına göndərilib. 1854-cü ildə isə "poruçik" rütbəsi alıb.***

1856-cı ildə o, xilasedici dəstələrdən ibarət Qafqaz konvoy eskadrilyasına köçürülüb, 1858-ci ildə isə "ştabs-rotmistr" rütbəsi alıb. İmperator qərargahı komandirinin 7 mart 1859-cu il tarixli əmri ilə o, xilasedici Qafqaz eskadronunun 4-cü müsəlman taqımına komandir təyin edilib. 1862-ci ildə "rotmistr" rütbəsinə layiq görülüb.

1862-ci ildə arzusuna uyğun olaraq komandanlığın əmri ilə ordunun süvariləri sıralarına qəbul olunmaqla Qafqaz Ordusuna göndərilib və ona "podpolkovnik" rütbəsi verilib.

Qafqaz Ordusunun Baş Komandanı Knyaz Mixail Nikolayeviçin 1863-cü ildə imzaladığı əmrlə o, Bakı hərbi qubernatorunun sərəncamına göndərilib. 1864-1865-ci illərdə Bakı polis rəisi, Şuşa və Nuxa qəzasının rəisi vəzifələrində çalışıb. 1866-cı il aprelin 14-də podpolkovnik Mirzə Hacı bəy Novruzov komandanlığın əmri ilə Qafqaz Süvari Diviziyasının 16-cı Nijni Novqorod Draqun alayına göndərilib. 1866-1871-ci illərdə alay komandirinin döyüş əməliyyatları üzrə köməkçisi, eyni zamanda, alayın 2-ci (1866-1868) və 1-ci (1868-1871) diviziyalarının komandiri olub. 1868-ci ildə "Xidmətdə fərqlənməyə görə" ən yüksək ordenlə təltif olunub və "polkovnik" rütbəsinə yüksəlib. 1871-1874-cü illərdə 17-ci Severski Draqun Alayının ehtiyat eskadronunun komandiri, 1874-cü il noyabrında isə 15-ci Tver Draqun Alayının komandiri təyin edilib.

1877-1878-ci illərdə o, Rusiya-Türkiyə müharibəsində iştirak edib. Müharibədəki əla döyüş xidmətlərinə görə 1878-ci ildə ona "general-mayor" rütbəsi verilib. 1879-cu ildə 3-cü Qafqaz süvari diviziyasının 1-ci briqadasının komandiri təyin edilib. Həmin il mayın 15-də Əlahəzrət İmperator Böyük Hersoq Nikolay Nikolayeviçin 15-ci Tver Draqun Alayına keçirilib. 1883-cü ildən 3-cü Qafqaz süvari diviziyası 2-ci Qafqaz kazak diviziyası adlandırılıb. General-mayor Novruzov 2-ci Qafqaz kazak diviziyasının 1-ci briqadasının komandiri təyin edilib. 1893-cü ildə Əlahiddə Qafqaz Hərbi Dairəsinin qoşunlarında xidmətə təyin olunub. Həmin il zabit rütbələrində qüsursuz xidmətə görə fərqlənmə nişanı ilə təltif edilib.

1896-cı ildə ona "general-leytenant" rütbəsi verilib. 1899-cu ildə təqaüdə çıxıb və Tiflisdə yaşayıb.

Orduda nümunəvi xidmət edən Mirzə Hacı bəy Novruzova imperiyanın kavaler ordenləri məhz döyüşlərdə göstərdiyi igidliklərə görə verilib. O, üçüncü dərəcəli "Müqəddəs Stanislav" (1856), üçüncü dərəcəli "Müqəddəs Anna" (1860), ikinci dərəcəli "Müqəddəs Anna" (1873), qılınc və bantla birgə "Müqəddəs Vladimir" (1877), qızıl qılıncla birgə "İgidliyə görə" (1878), qılıncla birgə üçüncü dərəcəli "Müqəddəs Vladimir" ordeninə, 1878-ci ildə isə çar II Aleksandrın şəxsi təşəkkürünə, birinci dərəcəli "Müqəddəs Stanislav" (1882), birinci dərəcəli "Müqəddəs Anna" (1886), ikinci dərəcəli "Müqəddəs Vladimir" (1891) ordenlərinə layiq görülüb. 1893-cü ildə uzun illər orduda nümunəvi xidmətinə görə fərqlənmə döş nişanı ilə təltif olunub. Həmçinin Mirzə Hacı bəy Novruzova 1871-ci ildə ali komandirlərə məxsus Almaniyanın qılıncla birgə "Xaç orden"i verilib.

Mirzə Hacı bəyin iki oğlu olub - Teymur bəy və Hidayət bəy. Teymur bəy də hərbçi olub. O, 1918-1920-ci illərdə Azərbaycan Milli Ordusunda "general-mayor" rütbəsinə yüksəlib.

Mirzə Hacı bəy Novruzov 14 fevral 1902-ci ildə vəfat edib. Tiflisdəki müsəlman qəbiristanlığında dəfn edilib.

**"Azərbaycan Ordusu"**

## İctimai-siyasi hazırlıq

# "Hərbi xidmətin müqəddəsliyinin məsuliyyətini yaxşı dərk edirik"



**(Əvvəli 1-ci səhifədə)**

Görülən məqsədyönlü işlərin nəticəsidir ki, qalib ordumuzun sıralarında xidmət edən Azərbaycan əsgəri Müzəffər Ali Baş Komandanına, xalqına, mənəvi dəyərlərinə sadiq, qorxmaz və cəsur əsgər olaraq Vətənə övladlıq borcunu layiqincə yerinə yetirir. "N" hərbi hissəsində yüksək tərtibatla hazırlanmış və müasir avadanlıqlarla təmin olunmuş sinif otağı Azərbaycan Ordusunun inkişaf tarixinin mərhələləri, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əsgərlərlə görüşlərini, 44 günlük Vətən müharibəsi və digər döyüş əməliyyatlarında qazanılan tarixi qələbəni, Hərbi Andı və Dövlət Himnini əks etdirən maraqlı eksponatlar əsgərlərin mənəvi-psixoloji hazırlığının və döyüş ruhunun artırılmasında, vətənpərvərlik hissinin yüksəldilməsində mühüm rol oynayır.

Vətən qoruyucularımız sinif otağında ictimai-siyasi hazırlıq məşğələsində idilər. Məşğələnin rəhbəri leytenant Qiyas Alıyev dedi ki, ictimai-siyasi hazırlıq dərsləri şəxsi heyətə vaxtlı-vaxtında keçirilir. "Ordumuzun gücü döyüş hazırlığı ilə mənəvi-psixoloji hazırlığın vəhdətidir. İctimai-siyasi hazırlıq məşğələlərinin səmərəli təşkili və keçirilməsi rəhbərlik tərəfindən daim diqqət mərkəzində saxlanılır. Bu baxımdan, müdafiə nazirinin təsdiq etdiyi plana uyğun olaraq şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi istiqamətində müvafiq tapşırıqlar yerinə yetirilir, təsdiq edilmiş mövzular üzrə dərslər keçirilir, əsgərlərə milli-mənəvi dəyərlərimizə daha sıx bağlılıq aşılanır. Hərbi qulluqçularımızın möhkəm nizam-intizama, komandirlərinə inam və digər müsbət keyfiyyətlərə malik olmasında ictimai-siyasi hazırlıq dərslərinin rolu böyükdür", - deyə zabit bildirdi.

Əsgərlərimizə mövzu ilə bağlı bir neçə sual ünvanlayıb, onların fikirlərini öyrəndik. Bakı şəhərindən hərbi xidmətə çağırılan əsgər Elvin Yaradanquluyev suallarımıza səlis və dəqiq cavab verdi: "Hərbi xidmət bizə bir çox müsbət keyfiyyətlər aşılayır. Komandirlərimizin təcrübələrindən yararlanır, onlardan lazımi biliklər öyrənir, həmçinin, ictimai-siyasi hazırlıq dərslərində hərbi biliklərimizi, dünyagörüşümüzü də artırırıq. Digər məşğələlər kimi, bu dərsdə də həvəslə iştirak edir, qrup rəhbərimizin danışdıqlarını diqqətlə dinləyir, fərqli mövzularda yeni-yeni məlumatlar əldə edirik".

Əsgər Məhəmməd Şirbağırov əslən Yardımlı rayonundandır. Hərbi qulluqçumuz dedi ki, hər dəfə məşğələyə başlamazdan əvvəl qrup rəhbəri vəzifə borcumuzu soruşur. "Dərsin sonunda keçirilən mövzu haqqında sual-cavab edərək qiymətləndirmə aparır. Keçirilən bütün dərsləri yaxşı mənimsəməyə səy göstəririk. Hərbi xidmətin müqəddəsliyinin məsuliyyətini yaxşı dərk edir, vəzifələrimizin öhdəsindən layiqincə gəlməyə və komandirlərimizin bizə olan etimadını doğrultmağa çalışırıq".

Əsgər Murad Əliyev Vətən sevgisinin mənəvi zənginlik olduğunu qeyd etdi. "Ana Vətənimizin müdafiəsində dayanan hərbi qulluqçular olaraq hər birimizin üzərinə düşən əsas vəzifə şəhidlərimizin canı, qanı bahasına təmin olunan ərazi bütövlüyümüzü qorumaq, onu gələcək nəsillərə ötürməkdir. Bu gün ordu sıralarında xidmət edən əsgər olaraq, komandirlərimizə minnətdaram ki, bizim doğma Vətənimizə layiqli əsgər, əsl vətəndaş kimi formalaşmağımızda əllərindən gələni əsirgəmirlər".

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

## Nümunəvi xidmət

# O, sürücü kimi həmişə örnəkdir



***Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Camal Həsənov peşəkar sürücülərdəndir. 15 ildən artıqdır ki, o, ordu sıralarında sürücü vəzifəsində xidmət edir. Zabit Nurməmməd Hacıyev dedi ki, çavuş C.Həsənov sürücü kimi üzərinə düşən bütün tapşırıqları vaxtında, dəqiq yerinə yetirməklə komandirlərin rəğbətini və hörmətini qazanıb.***

Camal həm də İkinci Qarabağ müharibəsi iştirakçısıdır. O, müharibə vaxtı idarə etdiyi avtomobillə döyüş bölgəsinə sursat, ərzaq və digər təminatları vaxtında çatdırıb. Onun müəyyən edilmiş vaxtda təyin olunmuş məntəqədə olması şəxsi heyətin döyüş qabiliyyətinin artmasına səbəb olub.

Çavuş C.Həsənov Lənkəran rayonunun Liman şəhərində anadan olub. Avtomobili idarə etməyə həvəsi onda hələ kiçik yaşlardan meydana gəlib. Hərbi xidmətə gəlməmişdən əvvəl bir müddət avtomobil təmir sexində usta yanında şagird çalışıb. Sürücülük peşəsinin ilkin sirlərini də orada mənimsəyib. Hərbi xidmət dövründə isə təcrübəli sürücü-mexaniklərdən bu peşənin incəliklərini öyrəndiyini dedi.

Sürücü ilə avtomobil parkında görüşdüm. Camal ona təhkim edilmiş avtomobilə texniki qulluq göstərirdi. O, dedi ki, müntəzəm olaraq həm idarə etdiyi avtomobilə, həm də onun xidmət etdiyi bölmədə olan digər texnikaların sazlığına məsuliyyət daşıyır. O, tabeliyində olan sürücülərə də texnikalarla bağlı gərəkli təlimatlar verir, istifadədə olan avtomobilləri texniki cəhətdən daim işlək vəziyyətdə saxlamağın vacibliyini onların diqqətinə çatdırır.

Çavuş C.Həsənov bu gün də sürücü kimi xidmətini məsuliyyətlə yerinə yetirir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

## Əsgər dostluğu

# Əsgər dostluğu səmimiyyətlə yaranır, səmimiyyətlə yaşadılır

*Hərbi xidmətin ilk günləri bir qədər sakit, bəzən sözsüz keçir. Hələ bir-birini yaxından tanımayan gənc əsgərlər arasında ilk ünsiyyətlər qurulur, ilk suallar verilir, ilk cavablar alınır. İlk öyrənilənlər ad-soyad olur, hərbi xidmətə çağırıldığı rayon olur. Bir də sabahısı günün ilk salam-əleyki. Beləcə, əsgərlər arasında ilkin münasibətlər yaranır.*



Əsgər Ayxan Zeynalov hərbi xidmətə Şəmkir rayonundan çağırılıb. O da hərbi xidmətin ilk gününün səssizliyini təklikdə yaşayıb. Səhərisi gün hələ adını bilmədiyi əsgərlə salamlaşıb. Səmimi salamlaşma səmimi tanışlıq yaradıb: Fəridlə Ayxan bir-birini tanıyıb. İlk günlər Ayxan Fəridə Şəmkirdən danışıb, Fərid Ayxana İsmayıllıdan. İlk vaxtlar bilməyiblər ki, səmimi tanışlıq dostluğun başlanğıcı olacaq; iki əsgər bir dostluğu sədaqətlə yaşadacaq...

Asudə vaxtlarda söhbətləşirlər. Ayxan Şəmkirdə sərbəst güləşlə məşğul olub. Fərid onun yarışlara necə hazırlaşdığını soruşub, yarışlarını soruşub. Öyrənib ki, Ayxan əvvəlcə kəndlərində, sonra Altay Cəmillinin rəhbərliyi ilə Şəmkir Olimpiya Kompleksində də məşq edib. İdmanın təkcə fiziki imkanları yüksəltmədiyini, həm də iradi keyfiyyələri möhkəmləndirdiyini də orada qətiləşdirib. Fərid onu da öyrənib ki, Ayxan 2023-cü ildə öz çəki dərəcəsində respublika birinciliyində ikinci yeri tutub.

Fərid mütaliəyə maraqlı olub. Oxuduqları düşüncələrini yaşının xüsusiyyətləri baxımından formalaşdırıb. İnsan xarakteri haqqında da düşüncələri belə gözəlləşib. Çağırışçı yaşına çatanda o da əmin olub ki, insanın həyat fəlsəfəsi dostluq duyğuları ilə genişlənir. Orta məktəbdə sinif yoldaşları ilə münasibətləri bu düşüncələr əsasında sədaqət işığına dönmüşdü. "Məni hərbi xidmətə sinif yoldaşlarım, əslində, dostlarım yola saldılar. Əminliklə dedilər ki, sənin əsgərlikdə də dostun olacaq. Ona da sədaqətli dost ol. Biz arzu edirik ki, dostumuz belə sevilsin...", - dedilər. Ayxanla dostluq edirik. Bu dostluğun bizimlə nəfəs alacağına ikimiz də inanırıq...", - Fərid belə dedi və ehtiramla Ayxana baxdı...

Kapitan Teymur Süleymanov bu əsgərlərin ikisinin də nümunəvi xidmət etdiyini bildirdi. Onu da dedi ki, yüksək mənəvi dəyərləri yaşatmağı bacaran əsgər Hərbi Nizamnamələrin tələblərini də məsuliyyətlə yerinə yetirir, komandirlərin tapşırıqlarını da.

Söhbət zamanı könül xoşluğu verən bir mətləb öyrəndik. Öyrəndik ki, Fəridin söhbətlərindən sonra Ayxan mütaliəyə maraq göstərir, bu marağın gələcəkdə sevgi olacağına inanırıq. Fərid Ayxandan xahiş edib ki, ona sərbəst güləşin incəliklərini aşılasın, öyrətsin, müəyyən mənada məşqçisi olsun. Hərbi xidmətdə başlayan əsgər dostluğu iki niyyətin gerçəkləşməsində vəsilə olacaq. Həm də heç zaman xəyala gəlməyən niyyətlər hərbi xidmətdə gerçəkləşəcək. Hərbi xidmətdə başlayan əsgər dostluğunun qüdrəti budur!

Bölmənin şəxsi heyəti Ayxanla Fəridin dostluğunun möhkəmliyinə inanır, bu dostluğu ürək dostluğu adlandırır. İkinci Qarabağ müharibəsi də təsdiqlədi ki, yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan ordunun şəxsi heyətinin qarşılıqlı münasibətləri ehtirama, bu baxımdan dostluğa əsaslanırsa, belə ordu daha möhtəşəm olur.

Dostluq da güc, qüvvət, qüdrət deməkdir. Azərbaycan Ordusu belə ordudur...

Əsgər dostluğunu ürək dostluğu adlandıranların da ürək dostları var...

Əsgərlər əsgər dostluğunu tərxis edildikdən sonra da sədaqətlə yaşadacaqlar. Azərbaycan Ordusunda əsgər dostluğu səmimiyyətlə yaranır, səmimiyyətlə yaşadılır...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

## Əsgərin tribunası

# Tərxis edildikdən sonra quruculuq işlərinin əsgəri olacağam



*Orta məktəbdə oxuyanda arzularımızla yaşayırdıq. Bizə elə gəlirdi ki, arzularımız bizim həyat yolumuzu nişan verir. O yola çatmaq üçün daha yaxşı oxumağa çalışırdıq. Hərə öz istəyini gerçəkləşdirmək istəyirdi...*

Mən orta məktəbi Sumqayıt şəhərində bitirmişəm. Yeniyetmə kimi düşüncələrim inşaata, inşaatla bir sırada memarlığa bağlı olub. İstəyimə çatmaq üçün dəqiq elmləri daha məsuliyyətlə öyrənirdim. Qonşumuzun məsləhəti ilə ali təhsil almaq üçün Ukraynanın Kiyev şəhərini seçdim. Kiyev Memarlıq və İnşaat Universitetinə daxil oldum. Azərbaycan Ordusu 2023-cü ilin sentyabrında antiterror əməliyyatına başlayanda Kiyevdə təhsil alan azərbaycanlı tələbələrlə Bakıya qayıtmaq istədik. Dekanlıq təhsilimizi dondurmaq istəyimizi əsaslandırmağımız üçün sənəd istədi. Sənəd təqdim edə bilmədik. Səhərisi gün əməliyyat uğurla başa çatmışdı. Azərbaycan Ordusu qalib gəlmişdi, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olunmuşdu. Onda müəllimlərimizin əksəriyyəti bizim sevincimizə şərik oldu, professorlardan biri, "Belə qələbələr təkcə bir millətin, bir dövlətin qələbəsi deyil, bəşəriliк qələbəsidir. Azərbaycan bunu bacardı...", - demişdi. Azərbaycanın apardığı əməliyyatın iştirakçısı olmaq istəyimiz Kiyevdə Azərbaycanımıza ehtiramı daha da artırdı...

Əsgərəm, mən də əsgər yoldaşlarım kimi nizamnamələrin tələblərinə ciddi əməl edirəm, komandirlərimin əmrlərini, tapşırıqlarını məsuliyyətlə və vaxtında yerinə yetirməyə çalışıram. Hərbi xidmətimizin başlanğıcından bizə gərəkli hərbi biliklər aşılanıb, təlimlərdə iştirak etmişik, bunlar bizim də döyüş hazırlığımızı artırıb. Biz daha güclü əsgər olacağıq, daha məsuliyyətlə xidmət edəcəyik.

Hərbi xidmətimiz başa çatanda biz də tərxis olunacağıq. Mən tərxis edildikdən sonra da əsgər olmağı qərara almışam - işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işlərinin əsgəri olacağam, mühəndis kimi, memar kimi...

Azərbaycan Ordusu torpaqlarımızın bütövlüyünü və suverenliyimizi tam bərpa etdi. Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işlərini də uğurla başa çatdıracaq. Azərbaycan gəncliyi də bu prosesin iştirakçısı olacaq. Onların sırasında qurub-yaradan əsgər məsuliyyəti ilə mən də olacağam!..

**Əsgər**
**Nihad ƏHMƏDOV**
**"N" hərbi hissəsi**

# "İstənilən döyüş əmrini yerinə yetirməyə hazırıq"



***Şəmkirdə anadan olmuşam, orta təhsilimi də orada almışam, hərbi xidmətə də doğulub boya-başa çatdığım rayondan yollanmışam. Mən də digər əsgər yoldaşlarım kimi xidmətə müəyyən hazırlıqlarla gəlmişdim. Bunlar hərbi xidmətə hazırlıq idi. İndi hərbi xidmətdəyəm. Mən də Hərbi And içmişəm, mən də nümunəvi əsgərlər kimi xidmət etməyə çalışıram. Hərbi xidmətə başlayanda biz də hərbi biliklər öyrəndik, hərbi vərdişlər aşıladılar, təlimlərdə müəyyən döyüş hazırlığına malik olduq. İstənilən döyüş əmrini yerinə yetirməyə hazırıq.***

Hərbi xidmət bizim nümunəvi hərbçi kimi formalaşmağımızda da olduqca əhəmiyyətli oldu. Biz də xidmət müddətində qarşılıqlı münasibətlərin əsgərin xarakterini formalaşdırdığını öyrəndik. Əmin olduq ki, Azərbaycan əsgəri xeyirxahlığı, dürüstlüyü, səmimi yoldaşlığı ilə güclüdür, güclü bir ordunun əsgəri kimi daha da güclü olacaq. Əsgər yoldaşlarımın hamısı xidmətlə bağlı çətinliyi olana kömək edir, məsləhətə ehtiyacı olana məsləhət verir, bildiyini öyrətməyi öyrənmək istəyəndən əsirgəmir. Buna əsgər dostluğu da demək mümkündür...

Əsgər yoldaşım Əziz Əjdərov Bakı şəhərində anadan olub. Hərbi xidmətin ilk günlərindən qarşılıqlı münasibətlərimiz yarandı. Xarakterlərimiz də, maraqlarımız da bir-birinə uyğun gəlir. Hərb tariximiz onun da maraq dünyasıdı, mənim də, ədəbiyyatımıza onun da böyük marağı var, mənim də.

Əziz hərbi xidmətin ilk günlərində sıra hərəkətlərini yerinə yetirməyə bir qədər çətinlik çəkən əsgər yoldaşlarına kömək edirdi, asudə vaxtlarda onlarla birlikdə bu hərəkətləri dönə-dönə təkrarlayırdı. Bunun nəticəsi olaraq əsgərlərimiz sıra hazırlığı məşğələlərində fərqlənməyə başladılar. Ona komandirlərimizdən əvvəl əsgər yoldaşlarımız təşəkkür edi. Əziz bir dəfə dedi ki, əsgər yoldaşlarımın bu təşəkkürlərini həyatımda ən gərəkli təşəkkür hesab edirəm, tərxis edildikdən sonra da belə hesab edəcəm...

Əziz hərbi bilikləri həvəslə öyrənib, təlimlərdə də fəallıq göstərir. Asudə vaxtlarımızda söhbətlərimiz zamanı müəyyən suallar da yaranır və hamı bildiyini deyir, deyilənləri ümumiləşdirir və doğru cavabı müəyyənləşdiririk. Belə söhbətlərdə Əziz daha fəal olur. Onun fəallığı digər əsgərlərin fəallığı ilə birləşir və asudə vaxtlarımızda belə söhbətlər bizə konkret mövzu ətrafında biliklərimizi sistemləşdirən dərs olur. Biz buna Əzizin təşəbbüsü ilə nail olmuşuq...

Əsgər yoldaşımız Əziz Əjdərov nümunəvi əsgərdir...

**Əsgər**
**Mahmud PAŞAYEV**
**"N" hərbi hissəsi**

# Hərbi qulluqçular tarixi yerləri ziyarət ediblər





*18 Aprel - Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü münasibətilə "Xidmət etdiyimiz bölgəni tanıyaq" layihəsi çərçivəsində Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsinin hərbi qulluqçuları tarixi yerləri ziyarət ediblər.*

Ziyarət çərçivəsində hərbi qulluqçular Nizami Gəncəvi adına Gəncə Dövlət Tarix-Diyarşünaslıq Muzeyi, Gəncəçay çayı üzərində yerləşən tarixi körpü, Heydər Əliyev Mərkəzində, Lüteran kilsəsi və Viktor Klaynın ev muzeyində olublar.

Hərbi qulluqçular qədim tariximiz, xalqımızın zəngin mədəni irsi, milli adət-ənənələri, incəsənət abidələri, həmçinin Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən ekspanotlarla tanış olub, mərkəz haqqında geniş məlumat da əldə ediblər.

**"Azərbaycan Ordusu"**

## Maraq dünyamız

# Nazka xətləri



Nazka xətləri - Perunun Nazka çölündə yerləşən qədim yer cizgiləridir. Bu xətlər müxtəlif heyvan və geometrik formaları təsvir edir və yalnız hava vasitələrindən görülə bilər. Nazka xətlərinin yaradılma məqsədi və metodları hələ də çoxları üçün bir müəmma olaraq qalır. Nazka xətləri qədim insanların mühəndislik və rəssamlıq bacarıqlarının möhtəşəm nümunəsidir. Bu xətlərin necə və niyə yaradıldığı qədim Perunun mədəniyyəti və cəmiyyəti haqqında yeni suallar doğurur. Bəzi araşdırmalar bu xətlərin dini mərasimlər və ya astronomik müşahidələr üçün istifadə edildiyini göstərir.

**"Azərbaycan Ordusu"**





# İdman



### Bakıda bədii gimnastika üzrə Dünya Kubokuna yekun vurulub

Bakıda keçirilən bədii gimnastika üzrə Dünya Kubokuna yekun vurulub.

Milli Gimnastika Arenasında təşkil edilən turnirin son günündə fərdi və qrup hərəkətləri üzrə komandalar arasında mükafatçılar məlum olub.

Onlar ayrı-ayrı alətlər üzrə bacarıqlarını nümayiş etdiriblər.

Həmçinin ənənəyə uyğun olaraq, kubokda ən çox icra xalını toplamış gimnast və qrup komandasına "AGF Trophy" kuboku təqdim olunub.

Otuz doqquz ölkədən gimnastların iştirak etdiyi yarışlar 3 gün davam edib.

### Çimərlik voleybolu üzrə Azərbaycan yığmaları Türkiyədə təlim-məşq toplanışı keçəcəklər



Çimərlik voleybolu üzrə qadınlardan və kişilərdən ibarət Azərbaycan milli komandaları Türkiyədə təlim-məşq toplanışı keçəcəklər.

Onlar bu məqsədlə Antalya şəhərinə yola düşüblər.

Komandalar aprelin 21-28-də təşkil olunacaq təlim-məşq toplanışı çərçivəsində həmin ölkədə keçiriləcək "Boardee Cup" turnirində də güclərini sınayacaqlar.



### Avropa çempionu olmuş Azərbaycan akrobatı Lüksemburqda xüsusi mükafata layiq görülüb

Azərbaycan akrobatı Ağasif Rəhimov Lüksemburqda keçirilmiş Avropa çempionatında xüsusi mükafata layiq görülüb.

Raziyə Seyidli ilə qarışıq cütlük proqramında fəxri kürsünün ən yüksək pilləsinə qalxmış idmançıya "Shooting star" mükafatı təqdim olunub.

O, templə hərəkətlərin icrasında fərqlənib.

Qeyd edək ki, milli komanda yarışları 1-i qızıl, 4-ü gümüş, 3-ü bürünc olmaqla, 8 medalla başa vurub. Kişi cütlüyündə Murad Rəfiyev və Daniel Abbasov gümüş (çoxnövçülük, balans, temp hərəkətləri), Seymur Cəfərov, Abdulla Əl-Məşayxi, Riad Səfərov və Rəsul Seyidlidən ibarət kişi qrupu gümüş (temp) və bürünc (balans) medallara sahib çıxıblar. Zəhra Rəşidova, Nəzrin Zeyniyeva, Anahita Bəşiri ilə Diana Məmmədova, Safiya Babayeva və Firuzə Qasımzadədən ibarət qadın qrupları isə üçüncü yerləri tutublar.

Bununla Azərbaycanın akrobatika gimnastikası tarixində ilk dəfə olaraq qadın və kişi qrupu Avropa çempionatında fəxri kürsüyə qalxıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar



### ABŞ Yaponiyaya daha iki strateji bombardmançı təyyarə göndərib

Amerikanın daha bir cüt "B-1B Lancer" strateji bombardmançı təyyarəsi Yaponiyanın Honsyu adasının şimalındakı Misava aviabazasına gəlib. Burada artıq ötən həftənin əvvəlində iki belə təyyarə yerləşdirilib.

Bu barədə "Newsweek" nəşri məlumat yayıb.

ABŞ Sakit Okean Komandanlığı bildirib ki, məqsəd Hind-Sakit Okean regionunda sabitliyi artırmaq üçün strateji çəkindirmə missiyalarını həyata keçirməkdir.

Yaponiyaya gəlməzdən əvvəl Amerikanın B-1B strateji bombardmançı təyyarələrinin ilk cütü Cənubi Koreya Hərbi Hava Qüvvələri ilə birgə təlimlər keçirib.

### Cənubi Koreya KXDR-lə sərhəd yaxınlığında gecə təlimləri keçirib



Cənubi Koreya hərbçiləri Kanvondo əyalətinin sərhədyanı Koson bələdiyyəsinin ərazisində artilleriya atəşi hazırlığı ilə bağlı gecə təlimləri keçirib.

Yonhap agentliyi xəbər verir ki, təlimlər düşmənin istənilən təxribatına operativ reaksiya verməkk üçün döyüş hazırlığını artırmaq məqsədi daşıyır.

Ümumilikdə 300-ə yaxın hərbçinin iştirak etdiyi təlimlərə 40-a yaxın texnika, o cümlədən K9A1 özüyeriyən haubitsalar, "Chunmoo" reaktiv yaylım atəşi sistemləri, həmçinin əks-batareya radarları və pilotsuz uçuş aparatları cəlb olunub.

Qeyd edək ki, Koreya Respublikası ötən ilin iyulundan bəri ilk dəfə olaraq Şimal sərhəd xətti yaxınlığındakı dəniz bufer zonasında təlimlər həyata keçirib.



### Polşa nüvə silahına sahib olmaq istəyir

"Polşa Fransanın "nüvə çətiri" vasitəsilə potensial Rusiya təhlükəsindən müdafiə olunmalı və ABŞ-ın nüvə silahlarına çıxış yolu axtarmalıdır".

Polşa Prezidenti Anjey Duda bunu "Bloomberg" agentliyinə müsahibəsində deyib.

Onun sözlərinə görə, bu yollar ziddiyyətli deyil və Varşava onlardan hər ikisini qəbul edə bilər.

Dövlət başçısı, həmçinin qeyd edib ki, NATO-nun rolu Rusiyanın "aqressiv davranışına" qarşı durmaqdır.

Qeyd edək ki, "Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilə" imzalayan ölkələrdən biri olan Polşa belə silahları əldə etməmək barədə üzərinə öhdəlik götürüb.

Rusiya Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Sergey Narışkinin NATO-nun İttifaq dövlətinə (Rusiya və Belarus) hücumu zamanı ilk olaraq Polşa və Baltikyanı ölkələrin zərər çəkəcəyi ilə bağlı sözlərinə cavab verən Polşa Prezidenti Anjey Duda NATO-nun heç vaxt heç kimə hücum etmədiyini və yalnız müdafiə alyansı olduğunu vurğulayıb.

**AZƏRTAC-ın materialları əsasında**

**Redaktor** mayor Ceyhun CƏFƏRLİ

**Telefonlar** Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız** Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı** Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi** Bəxtiyar ƏLİYEV

Lisenziya № 361 Sifariş № 156 Nüsxə 3663